# *ÖLÜMDƏN SONRANIN HÖKMLƏRİ*

***İslamda Cəfəri məzhəbinin fiqhinə görə " meyit" üçün nəzərdə tutduğu vacib və müstəhəb əməllər:***

***Ölümdən sonrakı əməllər***
***Meyitin qüslü***
***Meyitin kəfəni***
***Meyitin hənutu***
***Meyitin namazı***
***Meyitin dəfni***
***Vəhşət namazı***

Hazırlayan: **Q. Murquzov**

Redaktor: **E. Kələyev**

Dizayn: **E. Orucov**

© *Bütün Gürcüstan Müsəlmanları İdarəsi*

*Bismillahir Rəhmanir Rəhim*

## *Əziz Müsəlmanlar!*

***Yas məclislərində və xüsusi ilə dəfn günü ev sahibinin yemək vermək məsələsi düz deyil. Peyğəmbərimizn (s) tapşırığı ilə hüzür olan evə üç gün ərzində qohum-qonşular yemək bişirib gətirməlidirlər, əzizizni itirənlərə ehsan etməlidirlər. Müsibət yaşayan birisinin kiməsə yemək hazırlaması, əziyyətə düşməsi əslində elə ona qarşı olan bir hörmətsizlikdir. Əzizi dünyadan köçən şəxs bilmir bu dərdini çəksin, dəfn***

***işlərini yoluna qoysun, ya da ki, bol ehsan süfrəsi ilə məşğul olsun. Belə bir şey digər müsəlman ölkələrində də yoxdur. Gürcüstanın bir çox yerlərində bu sahədə yaranmış vəziyyət ancaq təəssüf doğura bilər. İsrafçılığa yol verilir, bəzən isə hətta rəqabət aparılır. Bunları da şəriətimiz bəyənmir və İslam dini ilə heç bir əlaqəsi yoxdur. Odur ki, bu yas mərasimlərindəki israfçılığa mümkün qədər tez son qoymaq lazımdır və ilk növbədə də yaxın qohumlar bu işdə təşəbbüs göstərib yas sahibini belə addımlar atmaqdan çəkindirməlidirlər. Hüzür məclisləri, necə deyərlər, "özünü göstərmək" üçün münasib yer deyil.***

***Buna görə də İlk növbədə israfçılığa yol verilən yas mərasimlərindən imkanlı şəxslər imtina etməlidirlər, buna özlərində cəsarət tapmalıdırlar.***

***BGMİ Ruhanilər Şurası***

## *Meyit hökümləri*

***كُلُّ نَفْسٍ ذائِقَةُ الْمَوْتِ ثُمَّ إِلَيْنا تُرْجَعُون “Hər insan ölüm (şərbətini) dadacaqdır, sonra sizi Bizim dərgahımıza doğru qaytaracaqlar”.***

(“Ənkəbut” surəsi, ayə: 57. )

*Əziz və hörmətli müsəlmanlar, İslam şəriəti bəşəriyyətin hidayəti və kamilləşməsi üçün Uca Tanrı tərəfindən həzrət Məhəmmdin (s) vasitəsi ilə yollanan ən mükəmməl qaydalar toplusudur.*

*Bu qaydalar bəşər həyatını əhatə etməklə yanaşı, öldükdə də ona qarşı diqqətsiz qalmamışdır.*

*Ölü bir şəxsin bunları həyata keçirməsi imkansız olduğuna görə həmin qanunların icrası digər müsəlmanların boynuna düşür. Bu vəzifənin həyata keçrilməsi bütün müsəlmanlara Kifayi vacibdir (bir nəfər müsəlman həmin işi yerinə yetirdikdə başqalarının boynundan götrülür ).*

*Hörmətli müsəlmanlar, İslam dini bir müsəlman dünyasını dəyişdikdə onun üçün nəzərdə tutduğu qanunların icrasını, məlumatlı müsəlmanlara həvalə olunmasını tövsiyə edərək bir sıra öhdəlikləri həmin şəxslərin boynuna qoyur!*

## İslam dininin " meyit" üçün nəzərdə tutduğu vacib və müstəhəb əməllər

**1)** ***ÖLÜMDƏN DƏRHAL SONRA GÖRÜLMƏSİ LAZIM OLAN İŞLƏR.***

Ölümdən sonra meyitin gözlərini, dodaqlarını və çənəsini bağlamaq, əllərini və ayaqların qibləyə doğru uzatmaq, üzərinə bir parça örtmək,onun dəfn edilməsi üçün müsəlman möminlərə xəbər vermək və onun dəfninə tələsmək müstəhəbbdir.

**Qeyd:** Yuxarıda deyilən işləri gördükdən sonra “meyit” üçün, xüsusən onun sahibi üçün vacib olan əməllər aşağıdakılardır;

**Hökm:** Müsəlmanın qüslu, hənutu, kəfəni, namaz və dəfni (on iki imama etiqdı olmasa da), onun vəlisinə (sahibinə) vacibdir. Vəli ya bu işləri özü görməli, ya da bir başqasını ona məmur etməlidir. Əgər meyitin vəlisi olmasa, yaxud da vəli onun işlərini yerinə yetirməkdən boyun qaçırsa, digər mükəlləflərə kifai vacibdir ki, onun işlərini yerinə yetirsinlər. Əgər bəziləri bu qaydaları yerinə yetirsələr, başqalarının boynundan götürülür, heç kəs yerinə yetirməsə, hamısı günah etmişlər.

## 2) MEYİTƏ QÜSLÜ VERMƏK

***Meyit qüsluna aid diqqət olunması gərəkən hökmlər:***

İslam dinində meyit üçün qüsl vermək onun sahibinə vacib olan əməllərdən biri kimi müəyyən olunmuşdur. Amma üzürlü bir səbəbdən bu işi başqa müsəlmanrın öhdəsinə də qoya bilər.

Meyitə qüsl vermək üçün muzd (əmək haqqı) almaq, ehtiyata əsasən, haramdır. Əgər bir kəs muzd almaq üçün meyitə qüsl versə, belə ki, bu işdə qəsdi-qürbət olmazsa, o qüsl batildir. Amma qüsldan qabaq bəzi hazırlıq işləri üçün muzd almaq caizdir.

Kişi naməhrəm qadına və qadın naməhrəm kişiyə qüsl verə bilməz. lakin məhrəm şəxslərin bir-birinə qüsl verməsi

caizdir. məsələn,  qadın öz ərinə, ər də öz arvadına qüsl verə bilər.

Əgər meyitin bədəninin bir yerində eyni-nəcis olsa, qüsl verməzdən əvvəl oranı paklamaq lazımdır. Meyitin bütün bədəninin, qüsl verilməzdən əvvəl nəcasətdən pak olması daha yaxşıdır.

Meyitin övrətinə baxmaq ər-arvaddan başqasına haramdır, qusul verərkən meyitin övrətinə baxan şəxs günah etmişdir. lakin (bu işlə) qüsl batil olmaz.

Meyit qüslü, cənabət qüslü kimidir. Tərtibi qüslda da sağ tərəfi sol tərəfdən əvvəl yumalıdırlar.

Heyz, yaxud cənabət halında ölən adama, heyz, yaxud cənabət qüslunu vermək lazım deyil, meyit qüslu onun üçün kifayətdir.

***Meyitə aşağıdakı tərtiblə üç qüsl vermək vacibdir:***

1. Sidr ilə qarışmış su ilə; 2. Kafur ilə qarışmış su ilə; 3. Xalis su ilə.

### 3) MEYİTİN KƏFƏNLƏNMƏSİ

**Kəfən parçalarının sayı və ölçüsü**

Müsəlman meyiti fitə, köynək və sərtasər (başdan ayağa) deyilən üç parçaya bükülməlidir.

- **Fitə** (vacib ehtiyata əsasən) göbək-dən dizə qədər bədəni örtməlidir. Daha yaxşı olar ki, sinədən ayağın üzünə (topuğa) qədər yetişsin.

- **Köynək** gərək vacib ehtiyata əsasən çiyinin başından baldırın yarısına qədər bütün bədəni örtsün və daha yaxşısı odur ki, ayağın üzünə yetişsin.

- **Sərtasər**in isə, bütün bədəni örtəcək qədər olması lazımdır. Uzunluğunun, bədənin baş və ayaq tərəfindən bağlanacaq qədər, eninin isə, bir tərəfi o biri tərəfinin üstünə gələcək qədər olması vacib ehtiyata əsasəndir.

## 4) MEYİTİ HƏNUTLAMAQ

### Hənut və hökümləri

Qüsldən sonra meyitin hənut olunması vacibdir; yəni alnına, əllərinin içinə, dizlərinə və ayaq baş barmaqlarının ucuna, bir qədər (onların üzərində qalacaq şəkildə) sürtməklə olmasa belə, kafur vurulmalıdır. Meyitin burnunun ucuna da kafur sürtmək müstəhəbbdir. Kafurun təzə, mubah (qəsbi olmayan) və əzilmiş olması gərəkdir. Əgər köhnə olduğuna görə qoxusu aradan getmiş olsa, kifayət deyildir.

## 5) MEYİT NAMAZI

Müsəlman olan altı yaşlı uşağın meyitinə, qüsl, kəfən və hənutdan sonra namaz qılmaq vacibdir.

Meyit namazı qılanın qiraətinin səhih olması (ərəb dilində düzgün və təcvidlə oxuması ) ən önəmli şərtlərdən biridirdir.

Meyit namazı qılmaq istəyən şəxsin dəstəmazlı, qüsllü, yaxud təyəmmümlü olması və bədəninin və ya libasının pak olması vacib deyil.

Meyitə namaz qılan şəxsin üzü qibləyə olması, meyitin, onun qarşısında arxası üstə uzandırılması, belə ki, meyitin başının namaz qılanın sağ tərəfində və ayaqlarının namaz qılanın sol tərəfində durması vacibdir.

Namaz qılanın məkanı meyitin yerindən alçaq və ya hündür olmamalıdır. Amma

azacıq alçaq və yuxarı olmağının eybi yoxdur (diqqət ).

Namaz qılan şəxs meyitdən uzaq olmamalıdır.

Meyit namazını camaatla qılan şəxs təkbir və duaları özü oxumalıdır.

Meyit namazı ayaq üstə və qürbət qəsdi ilə qılınmalı və niyyət zamanı meyit müəyyən edilməlidir, məsələn, **“bu meyyitin namazını qılıram qürbətən iləllah”** – deyə niyyət edilməlidir (diqqət).

**Meyit namazının qılınma qaydası**

Meyit namazının beş təkbiri var: Əgər namaz qılan şəxs beş təkbiri bu tərtiblə desə kifayətdir.

**Niyyətdən və birinci təkbirdən sonra desin:**

أشهَدُ اَن لاَالهَ إِلاَ اللهُ وَحدَهُ لاَ شَرِيكَ لَهُ وَ اَشهَدُ اَنَّ مُحَمَّدًا عَبدُهُ
وَ رَسُولُهُ اَرسَلَهُ بَالحَقِ بَشِيراً وَنَذِيرا بَينَ يَدَيِ السَاعَةِ

«Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, ərsələhu bil-həqqi bəşirən və nəzirən bəynə yədəyis-sa`ə»,

**<u>İkinci təkbirdən sonra:</u>**

أَللهُمَّ صَلِّ عَلَى مُحَمَّدِ وَآلِ مُحَمَّدِ وَ بَارِك عَلَى مُحَمَّدِ وَآلِ مُحَمَّدِ وَارحَم
مُحَمَّدًا وَآلَ مُحَمَّداً كَاَفضَلِ مَاصَلَّيتَ وَبَارَكتَ وَتَرَحَّمتَ عَلَى اِبراهِيمَ وَآلِ
اِبراهِيمَ اِنَّكَ حَمِيد مَجِيد وَصَلّ عَلَى جَمِيعِ الاَنبِيَاءِ وَالمُرسَلِينَ و الشهداء و
الصديقين و جميع عباد الله الصالحين

«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd, və barik əla Muhəmmədin və ali Muhəmməd, vərhəm Muhəm-mədən və alə Muhəmməd kəəfzəli ma səlləytə və barəktə və tərəhhəmtə əla İbrahimə və ali İbrahim, innəkə həmidun məcid, və səlli əla cəmi`il-ənbiya`i vəl-mursəlin vəşşu-hədai vəssiddiqin və cəmii ibadillahis-salihin», deməsi,

**Üçüncü təkbirdən sonra:**

أَلّلهُمَّ اغفر للمؤمنينَ وَالمُؤمنَات وَالمُسلمينَ وَالمُسلمَات اَلاَحيَاء مِنْهُم وَالاَموَاتِ تَابِع بَينَنَا وَبَينَهُم بِالخَيرَاتِ اِنَّكَ عَلَى كُلِّ شَيء قَدِير

«Əllahumməğfir lil-mu`mininə vəl-mu`-minat vəl-musliminə vəl-muslimat əl-əhyai minhum vəl-əmvat tabi` bəynəna və bəynəhum bil-xəyrat innəkə mucibud-də`əvat, innəkə əla kulli şəy`in qədir», deməsi

**Meyit kişidirsə, dördüncü təkbirdən sonra:**

أَللهُمَّ انَّ هَذا عَبدُكَ وَابنُ عَبدِكَ وَابنُ اَمَتِكَ نَزَلَ بِكَ وَاَنتَ خَيرُ مَنزُوُلٍ بِهِ أَلّلهُمَّ انا لاَنَعلَمُ مِنهُ الاَ خَيرا وَاَنتَ اَعلَمُ بِهِ منا أَلّلهُمَّ ان كَانَ مُحسنًا فَزِد فِي احسَانه وَ ان كَانَ مُسيئًا فَتَجَاوَز عَنهُ وَاَغفرلَنَا وَلَهُ أَلّلهُمَّ اجعَلَهُ عِندَكَ فِي اَعلَى عِلِيِينَ وَاخُلُف عَلَى اَهلِهِ فِي الغَابِرِينَ وَارحَمهُ بِرَحمَتِكَ يَااَرحَمَ الرَّاحِمينَ

«Əllahummə innə haza əbdukə vəbnu əbdikə vəbnu əmətikə nəzələ bikə və əntə xəyru mənzulin bih, əllahummə inna la nə`ləmu minhu illa xəyrən və əntə ə`ləmu

bihi minna, əllahummə in kanə muhsinən fəzid fi ihsanihi və in kanə musi`ən fətəcavəz ənhu vəğfir ləhu əllahum-məc`əlhu indəkə fi ə`la illiyyin vəxluf əla əhlihi fil-ğabirin vərhəmhu bi rəhmətikə ya ərhəmər-rahimin», deməsi

**<u>Meyit qadındırsa</u>, dördüncü təkbirdən sonra:**

أَللّهُمَّ انَّ هَذه اَمَتُكَ وَاَبنَتُ عَبدِكَ وَابنَتُ اَمَتكَ نَزَلَت بِكَ وَاَنتَ
خَيرُ مَنزُولِ بِهِ أَللّهُمَّ انَّا لاَ نَعلَمُ منِهَا الاَّ خَيرا وَانتَ اَعلَمُ بِهَا منا أَللّهُمَّ
ان كَانَت مُحسنَةً فَزِد فِي احسَانِهَا وَ ان كَانَت مُسيئةً فَتَجَاوَز عَنهَا
وَاغفرِلَهَا أَللّهُمَّ اجعَلهَا عندَكَ فِي اعلىً عَلِّيِّن وَاخلُف عَلَى اَهلِهَا فِي
الغابِرِينَ وَارحَمهَا بَرَحمَتِكَ يَا اَرحَم َالرَّاحِمِنَ

«Əllahummə innə hazihi əmətukə vəbnətu əbdikə vəbnətu əmətikə nəzələt bikə və əntə xəyru mənzulin bih, əllahummə inna la nə`ləmu minha illa xəyrən, və əntə ə`ləmu biha minna, əllahummə in kanət muhsinətən fəzid fi ihsaniha, və in kanət musiə`tən fətəcavəz

ənha, vəğfir ləha, əllahumməc`əlha indəkə fi ə`la illiyyin vəxluf əla əhliha fil-ğabirin, vərhəmha birəhmətikə ya ərhə-mərrahimin» deməsi daha yaxşıdır.

***Bundan sonra beşinci təkbiri deyə bilər və bununla da meyit namazı bitər.***

**Meyit namazının müstəhəb əməlləri**

Meyit namazı qılan şəxsin dəstəmazlı, qüsllü və ya təyəmmümlü olması;

2. Əgər meyit kişidirsə, namazını qılan şəxsin meyitin qamətinin orta qismində, əgər meyit qadındırsa, sinəsinin müqa-bilində dayanması;

3. Ayaqyalın namaz qılması.

4. Hər təkbirdə əllərini yuxarı qaldır-ması.

5. Meyitlə onun arasındakı məsafənin, külək libasını hərəkət etdirirsə, cənazəyə dəyəcək miqdardan az olması;

6. Meyit namazının camaatla qılınması;

7. İmam-camaat duaları və təkbirləri ucadan oxusun, onunla namaz qılanlar isə alçaqdan oxusunlar.

8. Camaatla qılınan meyit namazında məmumun (bir nəfər olsa belə) imamın arxasında durması;

9. Namaz qılanın meyiti və möminləri çox dua etməsi;

10. Camaat namazında namazdan qabaq üç dəfə "Əssalat" deməsi.

11. Meyit namazını, xalqın meyit namazı qılmaq üçün daha çox getdikləri yerdə qılmaları;

**6) Dəfn etmək və Qəbrə qoymaq.**

Meyiti qoxusu bayıra çıxmayacaq və yırtıcı heyvanların cəsədi bayıra çıxara bilməyəcəyi şəkildə torpağa dəfn etmək vacibdir. Əgər yırtıcı heyvanların bayıra çıxaracaqları qorxusu vardırsa, qəbirin kərpic və ona bənzər şeylərlə bərkidilməsi lazımdır.

Meyitin bədəninin ön tərəfi qibləyə doğru olacaq şəkildə, torpaqda sağ yanı üstə uzandırılmalıdır.

Kafir qəbiristanlığında müsəlmanın, müsəlman qəbiristanlığında isə kafirin dəfni caiz deyildir.

**7) Vəhşət namazı**

Meyitin qəbrə qoyulduğu ilk gecə iki rükət vəhşət namazı qılmaq daha yaxşıdır. İki rükətdən ibarət olan bu namazın

qılınma tərzi belədir: Birinci rükətdə Həmddən sonra bir dəfə «Ayətəl-kürsi», ikinci rükətdə də Həmddən sonra on dəfə «Qədr» surəsi oxunur. Namazın salamından sonra belə deyilir:

«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmmədin vəb`əs səvabəha ilə qabri fulan.» «Fulan» kəlməsinin yerinə meyitin adını deməlidirlər.

Vəhşət namazı meyitin qəbirə qoyulduğu ilk gecəsində qılınmalıdır. Amma gecənin əvvəlində və xiftən namazından sonra qılmaq daha yaxşıdır.

**Qeyd:**

**Məssi-meyyit və meyit qüslu**

Müqəddəs İslam dininin buyurduğu vacib işlərdən biri də budur ki, əgər insan hələ üç quslu verilməyən meyitin soyumuş

bədəninə toxunarsa, özünə qüsl verməsi vacibdir. Bu qüslun alınma qaydası başqa qüsullar kimidir, yalnız fərqi onun "niyyətindədir".

**Ölülər üçün yaxşı əməllər görmək:**

Ölünün niyyətinə sədəqə vermək, Quran oxumaq və oxutdurmaq. Xüsusən "xətm"oxutdurmaq (yəni əvvəldən sona qədər Quranı qiraət edib savabını mərhuma tapşırmaq). Ölülərin niyyəti ilə yaxşı işlər görmək və vəhşət namazı qılmaq.

**İmam Sadiq (ə) buyurur:**

*“Meyit üçün verilən sədəqə, edilən dua və yaxşılıq ona çatır və onun savabı həm o işi görənə, həm də meyitə verirlər.”*

*“Hər müsəlman şəxs ölülərin niyyəti ilə yaxşı bir iş görsə, Allah-taala onun savabını bir neçə qat artırar və ölülər ondan bəhrələnər.”*

**SON!**



